

*Salman Alıoğlu*

# Bir addım irəlidə...

**Həqiqətin üzü sərt,dadı isə acı olur. Bütün zamanlarda hakimiyyət koridorlarında həqiqət heç zaman qəbul edilməyib və yaxud da məcburiyyət qarşısında qismən də olsa onu həzm ediblər.Acı sözü və ifadəni heç kəs sevmir.**

Səbəbi isə çoxdan məlumdur,həqiqət cəmiyyəti bir addım irəli apara bilər,lakin həmin addım çoxlarının mənafeyinə,maraq dairəsinə,eyni zamanda tutduğu mövqeyə zərər vura biləcəyindən ehtiyatlananlar onu yaxına buraxmaq istəmirlər.

Yalan isə dadlı və şirin olur,onu sevənlər daha çoxdur və bu cəmiyyətdə şirniquş kimi yaxşı həzm olur.Faşist ideoloqu Gebbels deyib ki, yalanı min dəfə təkrar edəndə o həqiqət kimi qəbul olunur.Buradan aydın görünür ki,yalan bizim mənəviyyat süfrəmizdə özünə möhkəm yer tuta bilib.

Xalqın həyat təzində və güzəran qayğılarında,hətta adət ənənəsində,tərbiyəsində yalanın dərəcəsi və şəkərliliyi yüksək səviyyədə olduğu qənaətinə gəlməyə heç bir şübhə yeri qalmır.

Körpə doğulan andan ona ana südü yerinə yalan əmizdirməyə ciddi cəhdlə səy göstərirlər,kimyasal tərkibli maddələrlə onu qidalandırırlar.Həmin qida ana südünə oxşadılır və şirin dada malik olur.Körpələr onu ana südünün əvəzinə qəbul edir və ən acınacaqlısı odur ki,o yalan qidanı analar öz əlləri ilə öz uşaqlrına verirlər.

Körpə bir qədər böyüyən kimi onun qarşısında yenidən yasaq maneəsi yaradılır,usagı "xortdan","canavar" və sair vahiməli məxluqların adı ilə qorxudurlar.Bir qədər keçəndən sonra isə körpələri"Təpəgözün","Cırtdanın","Məlikməmmədin","Küpəgirən qarının"nağılları ilə yalanın olduğu tərəfə istiqmətləndirirlər.

Birinci sinifdən isə daha mədəni,daha ciddi şəkildə uşaqlara tədris olunan bilik də yalan tənzifi ilə sarınır.Uşaq psixologiyası bu dövr ərzində ciddi zərbələrə düçar olur,aldığı bilgi ilə cəmiyyətdəki durum arasında uçurum yaranır,yalan hipnozu onların tərbiyəsində çox ciddi çatlar yaradır.

Bu belə...Təbii ki,bu fikirlər mənim subyektiv düşüncələrimdir və onunla razılaşmaya bilərsiniz.İndi keçək əsas mətləbə.

Axsaq atın naşı nalbəndi və yaxud altından su çıxanlar,bir də iy gələn yazılar.Azərbaycan mətbuatının üzləşdiyi ən qatı problemin bir hissəsini belə xarakterizə etmək olar.Siz hər dəfə qəhramanlıqdan,fatehlikdən,özünə vurğunluqdan,jurnalistikadan söz açıb dəm vuranda,mən özümü torpağı işğala məruz qalan,şərəfinə,namusuna,kişiliyinə,mənəviyyatına təcavüz edilən gözükölgəli vətəndaş kimi xəcalət çəkirəm.Siz çox hiyləgər,çox məkrli,çox qəddar yalançılarsınız, əyilə-əyilə "ucal"maq sizin həyatınızdır,yeri gələndə "mələk" donuna girirsiniz,yeri gələndə "ağa"larınızın qarşısında bir parça əskiyə dönürsünüz.Aldığınız nəfəs də yalanla üfürülüb,peşəkarlıq,qabiliyyət,bacarıq sizdən çox-çox uzaqdadır.

Doğrudan da adamın sizə yazığı gəlir.Azərbaycanda ideologiyanı,mətbuatı,televiziyanı,radionu hansı istiqamətə yönəltiyiniz göz qabağındadır,sizin namərdliyiniz,sizin qulbeçəliyiniz, sizin nankorluğunuz,sizin qaloş sifətiniz bu gün Azərbaycanda çox adama məlumdur. Di gəl ki,sizin eybəcərliyiniz, nakişiliyiniz, savadsızlığınız,başınızın üstündəki Allahı danmaq məharətiniz, çanağınızı qoparmağa şirin dilinizlə mane olmağınız həqiqəti ört basdır edir.

Özəl telekanalların cəmiyyətə gətirdiyi bəlalar bu gün qorxulu bir həddə çatıb.Hörmətli millət vəkili Aqil Abbasın təbirincə desək,özəl televiziyalar əxlaqsızlığı,mənəviyyatsızlığı,qəddarlığı,cinəyatkarlığı daha çox təbliğ edir. Bu yaxınlarda, özəl telekanalın birində axşam saatlarında efirə gedən "Xəbər"lər buraxılışına qulaq müsafiri oldum. Xəbərlərin anonsunda aparıcı dörd nəfər gəncin ölümünü heç tükü tərpənmədən reklam etdi.

Baxın,intihar,yol qəzası,dəm qazından ölmə,bıçaqlanma,zorlama,dava-dalaş haqqında çox laqeyd şəkildə danışılır. Siz nə demək istəyirsiniz?! Azərbaycan reallığı budurmu ,ancaq qaranlıq tərəfi,cinayətkarlığı,əxlaqsızlığı göstərməklə öz ağlınızda olanları arxanızca apardığınıza əminsiniz?!. Cəmiyyətdə heç işıq görmürsünüz, ədəb-ərkan ,əxlaq,mənəviyyat ,ziyalılıq,vətənpərvərlik görmürsünüz?! Özünüzü niyə görməməzliyə vurursunuz?!



Özəl telekanallar qiybət yerinə çevrilib,oxuculardan üzr istəyirəm,öz məişətlərini,"əxlaq"larını,həyat yoldaşını efirdə səy-səy guləək tərifləməklə alt paltarından tutmuş tamaşaçıya tualetə,hamama getmək "dərsi" keçənlərin və yaxud, cəmiyyətdən,ailədən çıxdaş edilmiş beş-on nəfəri ekrana çıxararaq ağlaşma quraraq nə demək istəyirsiniz?! Özünüzü dövlətdən,məmurlardan,hüquq mühafizə orqanlarından üstün tutursunuz?! Çox bəsit və savadsız şəkildə demək istəyisiniz ki, cəmiyyətimiz təkcə bunlardan ibarətdir.

Geri zəkalı,xəstə,südü pozuq,yararsız,çıxdaş edilmiş adamların taleyi üzərində qurduğunuz reklam sizin mənəviyyatınızın,əxlaqınızın ən yaxşı göstəricisidir. Siz elə onların bir tayısınız!

Siz çox nadan, savadsız,özözünü inkar edən ibliz xislətinizlə demək olar ki,hər axşam tamaşaçılara şərəfsizliyi,əxlaqsızlığı,manqurtluğu,eybəcərliyi,nakişiliyi, naqisliyi, namərdliyi,bir sözlə, Azərbaycana düşmən qüvvələrin ideologiyasını zorən təbliğ edirsiniz.Siz nə qədər nankor,vicdansız,şərəfsiz, əslini-nəcabətini tanımayan və yaxud, onu danan haramzadalarsınız.Peşəkar jurnalistlər öz övladlarına yavan çörəyi zorla, zülümlə qazanırlar,bəs soruşan yoxdur ki,ay südü pozuq,ay əxlaqsız,ay anasının əmcəyini kəsən,ay bacısına tamah salan binamus sürülər bu dövlətin canına gənə kimi yapışmısınız,onu sümürüb yeyirsiniz,heç olmasa,xarici ölkələrdəki əlaltılarınıza dur deyin,dayanın işarəsini verin.

Nədi,buna kişiliyiniz çatmır?! Axı, sizdə kişilik nə gəzir ey?!

Azərbaycan mətbuatı mağmun gündədir,dövlətin pullarını danadişi kimi sümürüb yeyənlər ,fəxri ad , Prezident təqaüdü alanlar, ev və digər yardımlardan yararlananlar, hardasınız,səsiniz niyə çıxmır, niyə yarasa kimi qorxub gizlənmisiniz.

Xaricdən sizin yararlandığınız bu dövlətə,bu iqtidara qarşı çirkab,böhtan,şər, iftira yağdırırlar. Cavab verə bilmirsiniz?! Niyə? Çünki,sizin savadınız,biliyiniz,intelektiniz, təfəkürünüz, əxlaqınız,mənəviyyatınız naqisdir,geridir,dayazdır, bir sözlə, dirijor çubuğundan asılıdır.Yazıqlar olsun sizlərə!.

Azərbaycan elə bir məkandadır ki,dörd əjdaha ağzını ayıraraq onu udmaq- parçalamaq istəyir,müstəqilliyini,azadlığını,siyasətini qəbul etmək istəmir.Azərbaycanı kölə kimi görmək istəyir.QUL etmək istəyir.Həmin o əjdahalar torpaqlarımızın iyirmi faizini işğal edib,əhalisini öz dədə-baba yurdlarından didərgin salıb. SİZ hardasınız?!

Bütün bu şər qüvvələrə,istər daxili olsun, istərsə də xarici,tək bircə nəfər çox böyük mətanətlə,qeyrətlə,şərəflə,şücaətlə, dəyanətlə dayanıb:

-Azərbaycan Respublikasının Prezidenti İLHAM ƏLİYEV! Və bir də,onun həyat yoldaşı Mehriban xanım Əliyeva!

**Mən jurnalistəm. Yurdum,ata-baba evim Ermənistan tərəfindən işğal olunub. Tək bircə qardaşım torpaqlarımızın və dövlətçiliyimizin müdafiəsi uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla həlak olub. O, ağır illərdə,1992-1993-cü illərdə şəhid qardaşımın beş övladını bütün əziyyətlərə baxmayaraq ləyaqətlə böyüdürərək əsl vətəndaş kimi yetişdirmişəm. Heç bir titulum,təqaüdüm,evim yoxdur.Amma, gücüm çatanı edirəm. Heç bir təmənna güdmədən. Ad alanları, ev alanları, təqaüd alanları,deputat olanları,dövlət qəzetlərinin redaktorlarını mağmun görəndə,susqun görəndə,iki sifətli görəndə ,gündüz birinə,gecə başqasına xidmət edənləri görəndə ,yazdıqları yazıların altından su çıxanları görəndə deyirəm ki,siz çox,çox geridəsiniz.Çox geridəsiniz. İstər xaricdə olanlar, istərsə də daxildə soxulcan kimi gizlənənlər, bir daha deyirəm ki, Prezident İLHAM HEYDƏR oğlu ƏLİYEV çox, lap çox irəlidədir!!! Ona çata bilməzsiniz!**

Ədalət.-2019.-31 may.-S.4.